## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SÖYLƏDİYİ FİKİRLƏR

Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər çox oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcıhğı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.

***

Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq.

***

Füzulinin humanizm və ümumbəşəri dəyərlərlə mayalanmış yaradıcılığı bütün bəşəriyyət üçün böyük mənəvi qidadır. Füzuli Azərbaycanın böyük milli sənətkarı olmaqla yanaşı, bütün müsəlman aləminin qəlb şairidir.

***Heydər Əliyev,***
***Ümummilli Lider***

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

***

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Məhəmməd Füzulinin adı Azərbaycan tarixinə görkəmli şair, mütəfəkkir, tərcüməçi, Azərbaycan ədəbi dilinin yaradıcılarından biri kimi əbədi həkk olmuşdur. O, Nəsimidən sonra ana dilimizdə Azərbaycan şeirinin ən gözəl nümunələrini yaratmışdı.

***

Füzuli Şərqin ən böyük liriki, Türk ədəbiyyatının parlaq günəşidir.

***

Füzuli Azərbaycanda hər yerdən ziyadə mərufdur. Azərbaycanlıların ən çox oxuduğu və ən çox sevdiyi şair Füzulidir…. Füzuli divanı hər yerdən ziyadə Təbrizdə basılmışdır. Hafiz divanı farslar üçün nə isə, Azərbaycan türkləri üçün də Füzuli divanı odur.

***Məhəmməd Əmin Rəsulzadə,***
***içtimai-siyasi xadim***

Füzuli Azərbaycan ədəbiyyatını fars və ərəb girdablarından dartıb çıxartmış və dörd yanını sarmış boşluq içərisində yeni doğulmuş ədəbiyyatı çiyinlərinə almış və yenilməz addımlarla ta yüksəklərə qaldırıb parlaq bir sentimentalizm ədəbiyyatı olmaq üzrə vaxtına təqdim etmişdir. Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi.

***M. F. Axundov,***
***ictimai xadim, yazıçı***

Məhəmməd Füzuli novator şairdir, çünki o özündən əvvəlki şairlərdən və öz dövrünün şairlərindən heç kimi təqlid etməyib. Əksinə, M. Füzulidən sonra gələn şairlərin çoxusu, ələlxüsus Azərbaycan şairləri Füzuliyə peyrövlik edib və Füzulinin nüfuzu xeyli müddət bizim Azərbaycan şairlərinin asari – qələmiyyələrində müşahidə olunacaqdır. Türk dilinə rövnəq verən və onu xaru-xaşakdan təmizləyib bir göyçək və səfalü çəmənə bənzədən Füzuli olubdur.

***Firidun bəy Köçərli,***
***Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi***

***

Hansı şeirə baxsanız, görəcəksiniz ki, onda Füzulidən bir duz vardır.

***

Füzuli diridir, Füzuli şeir dövrünün hazırladığı yeniliyə məğlub olmaz və sarsılmaz bir qüvvədir. Onun məktəbi - ədəbi irsi bizim şairlərin başına girib, bütün əsərlərində bir Füzuli ruhu görünməkdədir.

***Cəlil Məmmədquluzadə,***
***yazıçı, dramaturq***

Dahi sənətkar Füzuli ustad bir şair kimi parladığı zamandan etibarən, onun əsərləri təkcə yaşadığı mühitdə deyil, bəlkə də Şərqin hər tərəfində, xüsusən Azərbaycan dili anlaşılan ölkələrdə sevilə-sevilə oxunur. Gənc yaşlarında şöhrətlənən Füzulinin sənətkarlıq qüdrəti, onun şeir üfiqlərində yüksəlib söz sənətinin inkişaf yollarını işıqlandıran dühası şairin müasiri olan şeir, sənət həvəskarlarının diqqətini cəlb etdi. Məhz buna görədir ki, hələ şair sağ ikən onun müasiri olan təzkirəçilər və ədəbiyyatşünaslar Füzuli haqqında yazmağa, onun sənətkarlığından danışmağa başlamışdılar.

***Həmid Araslı,***
***akademik***

***

Füzuli böyük dahidir ki, aşıb-daşıb gələn sellərin önünü aldı, ruhumuzu oxşadı, qonşulara tanıtdırdı, qabiliyyətimizi göstərdi, ədəbiyyatımızı diriltdi.

***Salman Mümtaz,***
***ədəbiyyatşünas***

***

Mövlana Məhəmməd Füzuli XVI yüzillik Azərbaycan ədəbiyyatının yetirdiyi elə nadir şəxsiyyətlərdəndir ki, onun yaradıcılığı təkcə öz dövründə məşhur olmaqla qalmamış, həm də 500 ildən bəri türk dilinin anlaşıldığı bütün məkanlarda lirik-fəlsəfi poeziyanın irəliyə doğru inkişafına öz möhtəşəm təsirini göstərmişdir.

Forma qüsursuzluğu, sözlərin poetik imkanından maksimum istifadə, mənanın çoxlaylılığı və hər layın xüsusi təyinata malik olması, təsvir və tərənnümlərdə ədəb dairəsinə ciddi riayət edilməsi, dərin rəmzilik, mümkün qədər az sözlə mümkün qədər çox poetik fiqurun verilməsi və s. Azərbaycan poeziya məktəbinin əsas üslubi xüsusiyyətlərindəndir.

Mərhələdən-mərhələyə zənginləşə-zənginləşə gələn bu poetik üslub Məhəmməd Füzuli yaradıcılığında artıq kamal zirvəsini fəth edir. Yeni ustadın, yeni müəllimin gəlməsi ilə bu məktəbin şagirdlərinin sayı sürətlə artır. Əslində, bunu məktəb adlandırmaq - onun statusunu bir qədər aşağı salmaq deməkdir; belə bir ifadə daha doğru olar ki, Nizaminin təsis etdiyi, professoru və rektoru olduğu Azərbaycan poeziya universitetinin ənənələrini Füzuli yeni mərhələdə canlandırdı, davam etdirdi və özünü bu yeni universitetin rektoru elan etdi.

Füzuli Azərbaycan poeziya universitetində yeni fakültələr açdı ki, bunlardan ən aparıcısı - Qəm fakültəsi oldu.

***Teymur Kərimli,***
***akademik***

***

O zülmət səltənətində, yalnız qüvvətin hakim olduğu yerdə, nə söz, nə əql, nə də zəka və istedadın heç bir qiymət və əhəmiyyəti olmadığını bildiyi halda Füzuli susmadı. Duyduğunu, gördüyünü söylədi. Qaba və cahil cəmiyyəti incə-incə iylədi. Çirkinliklərini, qabalıqlarını üzlərinə oxudu.

***Abdulla Şaiq,***
***Əməkdar incəsənət xadimi, şair***

Ədəbiyyatımızda Füzuli lirikası yüksəkliyinə qalxa bilən ikinci bir şair tanımırıq. Günəş istisinə ehtiyacı olan insanların mənəvi istisi, kolorisi və ehtiyacını ödəyən, onları sözün qüdrəti ilə saflaşdıran, yaşadan dühalar sırasında M.Füzulinin də adının çəkilməsi əbəs deyil.

***

Füzuli yalnız Azərbaycan xalqının, yalnız öz əsrinin deyil, bütün bəşəriyyətin, Renessans dovrünün, böyük sənətin böyük oğludur. Əsrlərdir ki, mədəniyyət dünyasında şeir, sənət anlaşılan, sevilən hər bir ölkədə və cəmiyyətdə bu böyük dahinin adı iftixarla yad edilir və əbədi olaraq yad ediləcəkdir.

***

Füzuli sənətinin qüdrətini, miqyasını, məziyyətlərini təhlil və təyin etmək bir nəfərin, bir elmi məktəbin, hətta bəlkə də bir elmi nəslin işi deyildir.

***Mir Cəlal Paşayev,***
***Əməkdar elm xadimi, professor***

***

Ürəyim şeirinlə doludur, ustad!
Yazıb-pozduqlarım varaq-varaqdır
Bu çətin yollarda mənzil başına
Məni məhəbbətin aparacaqdır.

***Rəsul Rza,***
***Xalq şairi***

***

Böyük məhəbbəti yaşadır zaman.
Nə qəm, ömür keçir, illər yarıdır...
Sevən ürəklərdə məşəl tək yanan
Füzuli eşqinin alovlarıdır.

***Nigar Rəfibəyli,***
***Xalq şairi***

***

Füzuli poeziyası fars, türk və ərəb dillərində olan bir Qurandır.

***Məhəmmədhüseyn Şəhriyar,***
***şair***

***

Füzulini dərk etdikcə dərk etmək istəyirəm. Çünki o, dərk olunduqca tükənmir, əksinə, artır, çoxalır, böyüyür, daha artıq əlçatmaz, ünyetməz olur. Çünki o, şeirimizdə böyüklüyün etalonu, ucalığın gözlə görünməz, ağılla dərk olunmaz son həddidir.

***

Şairlər var ki, biz onları bəyənirik. Şairlər var ki, onlara vurulur, onları sevirik. Şairlər də var ki, biz onların sənəti qarşısında donur, heykəlləşir, sözün tilsiminə düşürük. Füzulinin özü demişkən: "Surəti-halım görən surət xəyal edər məni".

Füzuli şeirinin ən gözəl təhlili onun qarşısındakı heyrətimizdir.

***Bəxtiyar Vahabzadə,***
*Xalq şairi*

***

Füzuli türk ədəbiyyatının ən yüksək zirvəsidir. O, yaradıcılığında sözlərdən hər zaman zərgər dəqiqliyi ilə istifadə edib.

***Anar,***
***Xalq yazıçısı***

***

Dünyaya gələndən dünya şeirinin,
Ağrı damarısan, ah damarısan.
Bir qəlbin içində yerləşir bəşər,
O qəlbin, ürəyin şah damarısan!

***Zəlimxan Yaqub,***
***Xalq şairi***

***

Türk dünyasının sivilizasiyaya bəxş etdiyi ən böyük bədii dühalardan biri Məhəmməd Füzulidir. Azərbaycan, Şərq və dünya elmi-nəzəri fikri tarixində "könüllər fatehi", "qəlb şairi", "eşq və məhəbbət nəğməkarı" kimi etiraf olunan Füzulinin poeziyası əslində xalis elmi dəyərlərə əsaslanan intelektual poeziyadır.

***Yaşar Qarayev***
***Əməkdar elm xadimi, professor***

- Böyük təfəkkür sahibi Füzuli yaradıcılığı boyu xalqımızın ən nəcib duyğularını, yüksək və humanist əməllərini tərənnüm edən əvəzolunmaz bir sənətkar, böyük bir insan olmuşdur.

- Yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmış Məhəmməd Füzuli haqlı olaraq deyir ki, insan şüuru ilə hər şeyə qalib gələcəkdir. Həqiqət olan hər bir şey imkan daxilində olan hər hansı bir şeydən daha əvvəldir.

- Məhəmməd Füzulinin yaradıcılığı o qədər nəcib duyğular, yüksək və humanist əməllərlə doludur ki, Qərbi Avropa dillərinə tərcümə edilmişdir.

- Nəğməni səma eyvanının kəməndi, xoş mahnını uca aləmin nərdivanı adlandıran Məhəmməd Füzulinin qəzəl və qəsidələri Azərbaycanın korifey sənətkarları tərəfindən bu gün də toy-düyündə, ümumxalq şənliklərində, ağır-əziz məclislərdə ifa olunmaqdadır.

***Kamal Camalov,***
***Əməkdar müəllim, professor***

Qarşında hörmətlə baş əyib hər an
Sənə ağsaqqallı ustadım deyir,
Vətən torpağının üstə yaranan
Dünənki, bugünkü, sabahkı şeir.

***Əli Tudə,***
***şair***

XV əsrin sonu XVI əsrin əvvəlləri klassik Azərbaycan ədəbiyyatının çiçəklənmə mərhələsi, qızıl əsridir. Füzuli həmin epoxanın dahi nümayəndəsidir və bu vaxta qədər lirikasının sənətkarlığı baxımından əlçatmaz olaraq qalır.

***Əli Nazim,***
***tənqidçi***

Füzulini sevirik! Türk türkü, müsəlman müsəlmanı, insan insanı sevən kimi... Füzuli bizim onu dərk etdiyimiz qədər bizimdir. Eyni zamanda, Füzuli bizim idrakımızın, adi insan şüurunun dərk edə bilməyəcəyi qədər də bizimdir...

***Vaqif Yusifli,***
***Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru***

***

Füzuli Şərq şeirinin günəşidir. Şərqin Şərq olmasından bəri yetişdirdiyi şairlərin içərisində ən səmimisi və həssası Füzulidir. Bütün türk ədəbiyyatında Füzulidən böyük bir ism bulmaq mümkün deyildir.

***Elias Con Uilkinson Gibb,***
***ingilis şərqşünası***

***

Cəsarətlə deyə bilərik ki, 530 yaşını qeyd etdiyimiz Məhəmməd Füzuli müasir Azərbaycan mədəniyyətinin inkişafına bu gün də ustadlıq təsirini göstərməkdədir.

***Ceyhun Mirzəli,***
***kulturoloq***